| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 12.04.2019 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 166 |
| **ADI** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələri”ndə dəyişikliklər edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 14-04-2019, Nəşr Nömrəsi: 80), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-04-2019, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 760) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 14.05.2019 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 090.030.010 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14201904120166 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 16.04.2019 |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələri"ndə dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 1, maddə 69; 2002, 2, maddə 112, 10, maddə 647; 2005, 1, maddə 58, 11, maddə 1069; 2013, 7, maddə 870; 2014, 1, maddə 64, 2, maddə 196; 2015, 1, maddə 69; 2016, 8, maddə 1444; 2017, 7, maddə 1489, 8, maddələr 1614, 1620, 12 (II kitab), maddə 2521; 2018, 3, maddə 585, 10, maddə 2168; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 yanvar tarixli 5 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə 2710 19 210 0 və 2710 19 250 0 alt yarımmövqelərinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2710 19 210 1 | reaktiv mühərriklər üçün TC-1 markalı yanacaq | 1 ton üçün 1,0 manat |
| 2710 19 210 9 | reaktiv mühərriklər üçün digər yanacaq | 1 ton üçün 80 manat |
| 2710 19 250 1 | KO-20 markalı işıqlandırıcı kerosin və KT-2 markalı texniki məqsədlər üçün kerosin | 1 ton üçün 1,0 manat |
| 2710 19 250 9 | digər məqsədlər üçün kerosin | 1 ton üçün 80 manat |

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir və 2020-ci il yanvarın 1-dək qüvvədədir.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 12 aprel 2019-cu il
166